Təhsil Nazirliyinin və "BOSCH" şirkətinin dəstəyi ilə Müasir Azərbaycan Peşəkarları Layihəsi çərçivəsində reallaşdırılan layihənin əsas məqsədi müvafiq istiqamətdə aparılan islahatların geniş ictimaiyyətə çatdırılması və gənclərin ilk peşə-ixtisas təhsili müəssisələrinə marağının artırılması, peşə təhsili sisteminin əhatə dairəsinin genişləndirilməsi və kadr hazırlığı prosesinin keyfiyyətinin yüksəldilməsindən ibarətdir.

Tədbirdə Azərbaycan Respublikasının təhsil naziri Mikayıl Cabbarov, Almaniyanın Azərbaycandakı səfirinin müavini Volfqanq Mössinger, Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov və "BOSCH" şirkətinin MDB və Gürcüstan üzrə regional direktoru Cordan Kostaf iştirak etmişlər.

İlk öncə Azərbaycan Respublikasının və Almaniyanın dövlət himnləri səsləndirilmişdir.

Təhsil naziri Mikayıl Cabbarov çıxışında bildirmişdir ki, Azərbaycanın sürətlə inkişaf edən iqtisadiyyatına yüksək hazırlıq səviyyəsinə malik müasir peşəkarlar lazımdır. Ölkənin potensialının və inkişaf tempinin çox yüksək olduğunu söyləyən nazir Azərbaycanda müxtəlif ixtisaslar üzrə müasir dövrün tələblərinə cavab verən peşəkarların hazırlanmalı olduğunu qeyd etmişdir.

Peşə təhsilinin inkişafının ölkəmiz üçün mühüm əhəmiyyətindən söhbət açan təhsil naziri həm daxili iqtisadi tələblər, həm də gələcəkdə regional əmək bazarları üçün Azərbaycanda peşəkar kadrların hazırlanmasının zəruriliyi haqqında fikirlərini nəzərə çatdırmış və respublikamızın bu sahədə regional mərkəzə çevrilməsinin mümkünlüyünü bildirmişdir. Bütün bunlara nail olmaq üçün ən müasir və yeni texnoloji yeniliklərin, təcrübələrin Azərbaycanın peşə hazırlığı sahəsinə tətbiqi yollarından bəhs edən nazir Təhsil Nazirliyinin həm Azərbaycanda, həm də xaricdə fəaliyyət göstərən şirkətlərlə əməkdaşlığı sayəsində peşəkar kadrların hazırlanmasına xüsusi diqqət yetirdiyini vurğulamışdır.

Dünyanın inkişaf etmiş ölkələrinin əsas üstünlüyünün məhz bilikdən, peşəkar kadr məsələlərinə yetirilən diqqətdən qaynaqlandığını nəzərə çatdıran təhsil naziri insan kapitalının elm kapitalına çevrilməsinin zəruriliyi barədə fikirlərini bildirmişdir. Nazir məhz bu məqsədlərə nail olmaq üçün ölkə başçısı cənab İlham Əliyevin hər zaman təhsilin inkişafına, həm maddi-texniki bazanın gücləndirilməsinə, həm də təhsilin məzmununda müasirliyin, yeniliyin tətbiq olunmasına diqqət göstərdiyini nəzərə çatdırmışdır.

Qeyd edək ki, ilk peşə-ixtisas təhsili sahəsində Azərbaycanla əməkdaşlıq edən bütün qurumlara təşəkkürünü bildirən nazir onu da qeyd etmişdir ki, ölkəmizdə peşəkar kadrların hazırlanması istiqamətində həm ölkə, həm də xarici şirkətlərlə səmərəli əlaqələr yaradılmışdır.

Resurs Mərkəzinin fəaliyyəti üçün "BOSCH" şirkətinin standartları əsas götürülmüş, təmirlə yanaşı, təchizat məsələlərinə də diqqət yetirilmiş, zəruri texniki avadanlıqlar quraşdırılmış, internet xətləri çəkilmiş, nəzəri və təcrübi təlim otaqları yaradılmışdır.

Mərkəzdə ilk peşə-ixtisas təhsili müəssisələri şagirdlərini, digər liseylərin müəllim və tələbələrini, eləcə də "BOSCH" şirkəti ilə əməkdaşlıq edən müəssisə və təşkilat nümayəndələrini təlimdən keçirmək mümkündür. Resurs Mərkəzi müdavimlərinin yekun bilik və bacarıqları müvafiq qiymətləndirmə üsulu ilə yoxlanılaraq adları "BOSCH" şirkətinin xüsusi məlumat bazasına yerləşdiriləcək və onlara rəsmi sertifikatlar veriləcəkdir.

Ümumiyyətlə, müvafiq istiqamətdə aparılan islahatlar ilk peşə-ixtisas təhsili müəssisələrinin fəaliyyətinin müasir tələblərə uyğunlaşdırılmasını təmin etməyə yönəlmişdir. Həyata keçirilən pilot layihələrin nəticələrinin digər peşə məktəblərində bir model kimi tətbiq olunması nəzərdə tutulmuşdur.